# Peşə təhsili müəssisələrinə tələbə qəbulu

1. **Peşə təhsil pilləsinə sənəd qəbulu necə aparılır?**

Peşə Təhsili Müəssisələrinə tələbə qəbulu mərkəzləşmiş və elektron ərizə forması vasitəsilə həyata keçirilir. Müraciətçilər **portal.edu.az** saytında qeydiyyatdan keçərək şəxsi səhifə yaradır, tələb olunan əvvəlki təhsil və digər zəruri məlumatları daxil edir, yekunda müraciət etmək istədiyi ixtisasları seçərək təsdiq edirlər. Müsabiqənin yekununda orta attestat balı daha yuxarı olan namizədlər vakant yerlərə qəbul olunurlar. Müsabiqənin yekun nəticəsi barədə müraciətçiyə qeydiyyatdan keçdiyi mobil nömrə vasitəsilə SMS bildiriş göndəriləcək. Müraciətçi öz şəxsi kabinetində də nəticələri ilə tanış ola bilər. Müsabiqədən keçən şəxslər qəbul olduqları müəssisələrdə öz sənədlərini təsdiq etdirməli və qeydiyyatdan keçməlidirlər.

2. **Qəbul hansı prinsip əsasında həyata keçirilir?**

Qeydiyyatdan keçmiş namizədlərin elektron ərizələrindəki məlumatlarının doğruluğu yoxlanıldıqdan sonra ilk peşə təhsili və texniki peşə təhsili səviyyələri üzrə qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında aparılır.

Yüksək texniki peşə təhsili səviyyəsi üzrə tələbə qəbulu ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında iştirak etmiş ərizəçilərin isə həmin imtahanda əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

3. **Neçə ixtisas seçimi verilir?**

Tələbə qəbulu prosesində müraciətçiyə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır.

4. **Sosial müdafiəyə xüsusi ehtiyacı olan aşağıdakı qrup şəxslərin təhsil almasında hər hansı güzəşt tətbiq olunurmu?**

1. Əlilliyi olan şəxslər, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar peşə təhsili müəssisələrinə müsabiqədənkənar qəbul edilirlər.

2. Aşağıda qeyd olunan şəxslər dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir:
   - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər; • əlilliyi olan şəxslər;
   - şəhid ailəsinin üzvləri;
   - Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;
   - köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar;
   - 20 yaşına çatmamış və I dərəcə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər

5. **Peşə təhsili üzrə kimlər müraciət edə bilər?**

Peşə təhsil müəssisələrinə ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər müraciət edə bilərlər.

6. **Peşə təhsil pilləsi üzrə təhsil ödənişlidirmi?**

Peşə təhsili pilləsi üzrə təhsil imkanı həm dövlət vəsaiti hesabına, həm də ödənişli əsaslarla yaradılır.

7. **Bir neçə dəfə dövlət vəsaiti hesabına təhsil almaq mümkündürmü?**

Dövlət təhsilalanların peşə təhsili səviyyələri üzrə peşə təhsili müəssisələrində dövlət hesabına yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

8. **Peşə təhsili pilləsi üzrə təhsil hansı səviyyələrdə aparılır?**

| Təhsil bazası | Yüksək texniki peşə təhsili | Texniki peşə təhsili (tam orta təhsil almaqla) | Texniki peşə təhsili | İlk peşə təhsili |
|---|---|---|---|---|
| Ümumi orta təhsil bazasından | **4 illik** | **3 illik** | **2 illik** | **1 illik** |
| Tam orta təhsil bazasından | **3 illik** | **-** | **1 illik** | **6 aylıq** |

**9. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təhsil ala bilərlərmi?**

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət peşə təhsili müəssisələrində yalnız ödənişli əsaslarla təhsil ala bilər.

**10. Dövlət peşə təhsili müəssisələrində təhsil alan tələbələr təqaüd ilə təmin olunurmu?** Dövlət vəsaiti hesabına təhsil alan tələbələrə təqaüd verilir.

**11. Peşə təhsili almaq üçün yaş məhdudiyyəti varmı?**

Müsabiqədə iştirakınıza əvvəlki təhsil sənədləriniz əsasında baxılır. Burda yaş məhdudiyyəti yalnız ümumi orta təhsil bazasından müraciət edən tələbələr üçün 3 illik və 4 illik tədris qruplarına tətbiq edilir. Belə ki, bu qruplara yalnız son 3 il ərzində ümumi orta təhsilini başa vuran şəxslər müraciət edə biləcəklər.

**12. Müsabiqədən uğurla keçən şəxsləri növbəti mərhələdə nə gözləyir?**

Peşə təhsili müəssisəsinə qəbul olmuş şəxs aşağıda qeyd olunan sənədləri müsabiqənin nəticələri rəsmi elan edildikdən sonra 10 (on) gün müddətində qəbul olunduğu peşə təhsili müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidir:

1. attestatın əsli;
2. sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış;
3. şəxsiyyət vəsiqəsinin surəti;
4. 3 x 4 sm ölçüdə dörd ədəd fotoşəkil;
5. hərbi bilet və ya çağırışçı şəhadətnaməsi;
6. güzəştli şərtlərlə qəbul edilən şəxslər üçün müvafiq təsdiqedici sənəd.

- Qəbul olmuş şəxsin qeyd olunan müddətdə qəbul olunduğu peşə təhsili müəssisəsində qeydiyyatdan keçməməsi onun həmin ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.
- Qəbul və onun nəticələri ilə bağlı vətəndaşların müraciətlərinə baxılması üçün Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən Apelyasiya Komissiyası yaradılır.
- Müsabiqədə iştirak etmiş şəxs Apelyasiya Komissiyasına şəxsiyyəti təsdiq edən sənədin əslini təqdim etməklə, şəxsən müraciət etməlidir.
- Müsabiqədə iştirak etmiş şəxs Apelyasiya Komissiyasının qərarından narazı qaldıqda, müsabiqənin nəticəsi ilə bağlı inzibati qaydada və ya məhkəməyə şikayət verə bilər.